# “Əsrin müqaviləsi”ndən “yaşıl enerji”yə:

# Bakı-London əlaqələrində möhkəm xətlər

**Azərbaycan çoxşaxəli və praqmatik xarici siyasət yürütməklə yanaşı, strateji tərəfdaşlıqların qurulmasında da maraqlıdır. Bu baxımdan, Böyük Britaniya ilə münasibətlər Azərbaycanın diplomatik və iqtisadi strategiyasında mühüm yer tutur. Azərbaycan-Böyük Britaniya əlaqələri həm ikitərəfli çərçivədə, həm də beynəlxalq və regional səviyyədə siyasi, iqtisadi, enerji təhlükəsizliyi sahələrində xüsusi əhəmiyyət kəsb edir.**

Böyük Britaniya-Azərbaycan münasibətləri tarixi və strateji mahiyyət daşıyır. İki ölkə arasında diplomatik əlaqələrin formalaşması XX əsrin sonlarına təsadüf edir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqil dövlət kimi həyata keçirdiyi xarici siyasət kursu xüsusilə, Qərblə əməkdaşlıq xətti ölkəmizin uzunmüddətli inkişaf perspektivlərini müəyyənləşdirdi. Böyük Britaniya ilə əlaqələrin inkişafı isə məhz bu kontekstdə xüsusi əhəmiyyət kəsb edirdi.

1994-cü və 1998-ci illərdə Heydər Əliyevin Böyük Britaniyaya səfərləri Azərbaycan-Böyük Britaniya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını təmin etdi. Xüsusilə, 1994-cü ildə ulu öndərin Londona rəsmi səfəri və həmin dövrdə Birləşmiş Krallığın Baş naziri Con Meycor ilə keçirdiyi görüş strateji əməkdaşlıq üçün fundamental baza formalaşdırdı. Həmin ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın dünya enerji bazarına inteqrasiyası üçün tarixi dönüş nöqtəsi oldu və Böyük Britaniya bu müqavilənin əsas benefisiarlarından biri kimi çıxış etdi. bp şirkətinin Azərbaycanın enerji sektorundakı dominant rolu həm iqtisadi, həm də siyasi baxımdan Azərbaycan-Böyük Britaniya münasibətlərini strateji səviyyəyə yüksəltdi.



Azərbaycanın Böyük Britaniya üçün etibarlı tərəfdaşa çevrilməsi təkcə enerji layihələri ilə məhdudlaşmadı. Zamanla siyasi dialoq daha da dərinləşdi, qarşılıqlı investisiyalar artdı və iqtisadi əməkdaşlıq diversifikasiya edildi. Azərbaycan Respublikası Prezidentinin və digər yüksək vəzifəli dövlət rəsmilərinin Böyük Britaniyaya rəsmi və işgüzar səfərləri bunun əyani sübutudur. Məsələn, 2018-ci ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin andiçmə mərasimindən dərhal sonra ilk rəsmi səfərlərindən birini Böyük Britaniyaya etməsi bu ölkənin Azərbaycan üçün strateji əhəmiyyətini bir daha vurğulayır. Prezident İlham Əliyev Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin dəvəti ilə Londona səfər edərək iki ölkə arasında mövcud əməkdaşlıq perspektivlərini daha da genişləndirən yeni strateji müzakirələr aparıb.

Prezident İlham Əliyevin Böyük Britaniyaya hər işgüzar səfəri iki ölkə arasındakı strateji əməkdaşlığın inkişafına yönəlmiş ciddi addımların göstəricisidir. Xüsusilə, 2024-cü il iyulun 18-də dövlət başçımızın Böyük Britaniyanın Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərəyə səfəri Bakı-London münasibətlərinin geosiyasi önəminin sübutudur.

Azərbaycanın Böyük Britaniya ilə əməkdaşlığında xüsusi yer tutan məsələlərdən biri də ekoloji və "yaşıl enerji" layihələridir. Ötən il noyabrın 12-də Prezident İlham Əliyev COP29 çərçivəsində Böyük Britaniyanın Baş naziri Kir Starmer ilə görüşüb. Görüşdə Azərbaycanın qlobal iqlim siyasətinə töhfəsi və regionda "yaşıl enerji" mərkəzinə çevrilməsi istiqamətində həyata keçirilən layihələr müzakirə edilib.

Böyük Britaniyanın keçmiş baş naziri Rişi Sunak 2024-cü il martın 14-də XI Qlobal Bakı Forumu ilə bağlı Azərbaycan Prezidentinə ünvanladığı məktubda, ölkəmizin strateji coğrafi mövqeyini vurğulayaraq beynəlxalq ticarət və logistika şəbəkəsindəki mühüm roluna diqqət çəkmişdir. Sunakın məktubunda yer alan fikirlər Azərbaycan-Böyük Britaniya əməkdaşlığının gələcək perspektivlərini açıq şəkildə ortaya qoyur.

Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dair mövqeyi hər zaman beynəlxalq hüquq prinsiplərinə əsaslanmışdır. Xüsusilə, Ermənistan-Azərbaycan münaqişəsi kontekstində rəsmi London beynəlxalq hüququn fundamental prinsiplərinə sadiqlik nümayiş etdirmişdir. Böyük Britaniya Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıyan, münaqişənin həllində hüquqi legitimlik prinsipini dəstəkləyən aparıcı Qərb dövlətlərindən biri olub. 2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük Vətən müharibəsi dövründə də Böyük Britaniya balanslı və obyektiv mövqe sergiləyərək Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqq işini tanıyan siyasət yürüdüb. Londonda qəbul edilən rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyünün BMT Nizamnaməsinə və beynəlxalq hüquq normalarına uyğun şəkildə bərpa edilməsinə dəstək ifadə edilib.

Ölkələrimiz arasında siyasi münasibətlər müxtəlif formatlarda uğurla davam etdirilir. 2016-cı ildən etibarən Azərbaycan və Böyük Britaniya Xarici İşlər nazirlikləri arasında strateji dialoq formatında müntəzəm iclaslar keçirilir.

Eyni zamanda əlaqələrin inkişaf etdirilməsi üçün qanunverici orqanlar səviyyəsində də konkret addımlar atılmışdır. 1997-ci ildə Milli Məclisdə Azərbaycan-Böyük Britaniya Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupu təsis edilmiş, 2014-cü ildə isə Birləşmiş Krallıq parlamentində Azərbaycan üzrə parlament qrupu (All-Party Parliamentary Group on Azerbaijan) yaradılmışdır. Bu qrupların fəaliyyəti institusional əməkdaşlığın formalaşmasına parlament üzvləri arasında siyasi və iqtisadi məsələlər üzrə müzakirələrin aparılmasına zəmin yaratmışdır.

Böyük Britaniya Azərbaycan iqtisadiyyatına sərmayə yatıran ölkələr arasında lider mövqeyini qoruyub saxlayır. Statistik göstəricilər də bunu sübut edir: 2023-cü ilin sonunadək Böyük Britaniya Azərbaycanın müxtəlif sahələrinə ümumilikdə 83 milyard dollar həcmində sərmayə qoyub. Bu, Qərb ölkələri arasında Azərbaycanın iqtisadi inkişafına ən böyük maliyyə dəstəyini göstərən dövlətin məhz Böyük Britaniya olduğunu nümayiş etdirir. Ticarət sahəsində də müsbət dinamika müşahidə olunur. 2023-cü ildə Azərbaycan ilə Böyük Britaniya arasında ticarət dövriyyəsinin həcmi 790 milyon dolları ötüb. 2024-cü ilin yanvar-may aylarında isə bu rəqəm 140 milyon dolları keçib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 10 faiz artım deməkdir.

Azərbaycan və Böyük Britaniya arasındakı iqtisadi əlaqələrin institusional əsaslarının gücləndirilməsi istiqamətində atılan mühüm addımlardan biri də 2021-ci ilin mayında Britaniya-Azərbaycan Ticarət və Sənaye Palatasının təsis edilməsi olub. 2022-ci ildən fəaliyyətə başlayan palata biznes əlaqələrinin inkişafına dəstək verməklə yanaşı, ticarət və investisiya sahəsində daha çevik mexanizmlərin formalaşmasına imkan yaradıb. Bu institut Azərbaycan və Böyük Britaniya şirkətləri arasında əməkdaşlıq imkanlarını genişləndirərək yeni iqtisadi təşəbbüslərin reallaşmasına zəmin yaradır. İqtisadi əməkdaşlığın strateji təməlini enerji sektoru təşkil edir. Qlobal enerji bazarında dominant oyunçulardan biri olan bp Azərbaycanın neft-qaz sənayesinin inkişafına misilsiz töhfələr verərək ölkəmizin əsas tərəfdaşlarından birinə çevrilib. bp-nin Azərbaycandakı fəaliyyəti enerji təhlükəsizliyinin təmin olunması və beynəlxalq enerji bazarlarında Azərbaycanın mövqeyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. bp-nin Azərbaycanda həyata keçirdiyi layihələr içərisində "Azəri-Çıraq-Günəşli" (AÇG) neft yataqları bloku və "Şahdəniz" qaz-kondensat yatağı xüsusi yer tutur. Bp eyni zamanda Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, Bakı-Tbilisi-Ərzurum (BTE) qaz kəməri və Cənub Qaz Dəhlizinin (CQD) əsas komponentləri olan Cənubi Qafqaz Boru Kəməri (CQBK), TANAP və TAP layihələrinin əsas sərmayədarlarından biridir. Bu layihələr Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasını təmin edərək ölkəmizin geosiyasi əhəmiyyətini artırır.

Azərbaycanın neft-qaz sektorunun inkişafında dönüş nöqtəsi sayılan "Əsrin müqaviləsi" məhz SOCAR və bp arasında strateji tərəfdaşlığın əsasını qoyub. Həmin vaxtdan etibarən dərinləşən əməkdaşlıq 2017-ci il sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının 2050-ci ilədək işlənilməsini nəzərdə tutan yeni sazişin imzalanması ilə daha da möhkəmlənib. Bu saziş təkcə enerji resurslarının hasilatı və ixracını deyil, həm də Azərbaycana əlavə investisiyaların cəlb olunmasını təmin edərək uzunmüddətli iqtisadi sabitliyin əsaslarından biri kimi çıxış edir. 2018-ci il aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri zamanı bp ilə SOCAR arasında Xəzər dənizinin Azərbaycan sektorunda Şimali Abşeron hövzəsindəki D230 blokunun birgə kəşfiyyatı və işlənilməsinə dair hasilatın pay bölgüsü haqqında yeni saziş imzalanıb.

2018-ci il mayın 23-də Oksford Universitetində Azərbaycanın, Qafqazın və Orta Asiyanın tarixi, dilləri və mədəniyyətlərinin öyrənilməsi üzrə yeni elmi mərkəz açılıb. Bu təşəbbüs Böyük Britaniya Fondunun dəstəyi ilə reallaşdırılıb və bu fondun Qəyyumlar Şurasına Azərbaycanın akademik ictimaiyyətində yüksək nüfuza malik professor Nərgiz Paşayeva rəhbərlik edir.

Azərbaycan və Böyük Britaniya arasında elmi təhsil əlaqələrinin dinamik inkişafını göstəricilərindən biri də Cənubi Qafqaz regionunda ilk ingilis dilli idman jurnalistikası üzrə magistr proqramının tətbiqidir. Bu proqram Britaniyanın Hallam Universiteti və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası arasında birgə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Tanınmış britaniyalı jurnalist Den Meyson (Dan Mason) rəhbərlik etdiyi proqram idman jurnalistikasının inkişafına və qlobal informasiya məkanında Azərbaycanın media sektorunun daha peşəkar kadrlarla təmsil olunmasına yönəlib.

Azərbaycan-Böyük Britaniya əməkdaşlığının tarixi kökləri və bu əlaqələrin inkişaf dinamikası müxtəlif nəşrlərlə də əbədiləşdirilir. 2019-cu il mayın 22-də Böyük Britaniya Parlamentinin Lordlar Palatasının üzvü, Leyboristlər Partiyasından Azərbaycanın Dostları Qrupunun sədri Lord Devid Evansın "Senate Publishing" nəşriyyat evinin SOCAR-la əməkdaşlıq çərçivəsində nəşr etdiryi "Azərbaycan və Böyük Britaniya - 100 illik tərəfdaşlıq" kitabının təqdimatı olub. Ümummilli Lider Heydər Əliyevin irsinin tanıdılması məqsədilə 2023-cü il mayın 26-da Britaniyanın tarixi Viktoriya və Albert Muzeyinin "Rafael" qalereyasında Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Azərbaycanın atçılıq ənənələri qədim dövrlərə söykənən zəngin mədəniyyətin daşıyıcısıdır. Azərbaycan Respublikası Atçılıq Federasiyası bu irsin beynəlxalq arenada layiqincə təmsil olunması üçün Londonun ən nüfuzlu tədbirlərindən biri olan "Royal Windsor Horse Show"da mütəmadi iştirak edir. 2022-ci il mayın 12-15-də Londonda keçirilmiş "Royal Windsor Horse Show" atçılıq şousunda Azərbaycan Dövlət Sərhəd Xidmətinin "Süvarilər" atlılar dəstəsi "Land of Fire - Azerbaijan" adlı xüsusi proqramla çıxış edərək Azərbaycan atçılıq ənənələrini yüksək səviyyədə nümayiş etdirdi.

Bu tədbir Qarabağ atlarının beynəlxalq miqyasda təbliğ edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Atçılıq şousu çərçivəsində Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Böyük Britaniya Kraliçası II Elizabet ilə görüşərək Azərbaycan Prezidenti İlham Əliyevin hədiyyəsi olan "Şöhrət" adlı Qarabağ atını Kraliçaya təqdim etdi. Bu jest Azərbaycanın Böyük Britaniya ilə mədəni diplomatiya vasitəsilə münasibətləri dərinləşdirmək və tarixi dəyərlərini paylaşmaq istəklərinin bariz nümunəsi idi. Bununla yanaşı, tanınmış heykəltəraş Faiq Hacıyevin yaratdığı Qarabağ atı "Alxan" və Dilbaz atı "Qalxan"ın heykəllərinin Kraliçaya hədiyyə olunması Britaniya ictimaiyyətinin Azərbaycan mədəniyyətinə marağının artırılmasına xidmət edir.

Bütün bu əməkdaşlıq sahələri Azərbaycan və Böyük Britaniya arasında münasibətlərin təkcə iqtisadi və siyasi deyil, həm də mədəni və elmi aspektlərdə də inkişaf etdiyini göstərir. Azərbaycanın diplomatik çevikliyi və strateji tərəfdaşlıqları dərinləşdirmək istiqamətində uğurlu siyasəti Bakı-London əlaqələrinin gələcək perspektivlərini daha da artırır.

**Tacir SADIQOV,**
**"Respublika".**